

Yusif NƏĞMƏKAR

## TƏKLİYİNƏ ÜMİD ŞEİRİ

Soyuğundan üşümür
Odumun buz dağları .
Kürüyür gülüşümü
O gözlərin ağları ...

Nəğməm yanıqlı "Şüştər",
Əriyim xanə-xanə.
Könül qapını göstər,
Döyüm də dərvişanə.

Sükutunun yox sonu,
Tək xəyalın yanında.
Həmdəmin telefonun,
Şeirim də ekranında .

Ötənlərə sürünmək
Fikri sayıqladacaq.
Xatirəyə bürünmək
Səni soyuqladacaq.

Tərk et xiffəti sən ha,
Gərək qəm dizi bükəm ...
Sən nisgilində tənha,
Mənsə sevgimdə təkəm .

Gözlükdən baxıb tanı
Qəfil gələn qonağı.
Soruşma ki , bəs hanı
Qonum-qonşu qınağı?!

Saxla o yır-yığışı,
Qapında dayanmışam.
Burda həsrət yağışı
İslatdıqca yanmışam.

Bir qələm sətirmişəm
Yazıb, tale sovmağa.
Qəlbimi gətirmişəm
Təkliyini qovmağa...

...Sənə heyif demərəm,
"Heyif"ə heyfim gəlir...

## GÖZƏLLİK ŞƏRTİ

Sınmaz sınaq sevgidə,
Əzab, əzm də şərtdir.
Gözəl, gözlər sevgidə,
Tab da, dözüm də şərtdir.

Duyub duyğu yazını,
Dinşəyim avazını.
Sər səmavi nazını,
Görən gözüm də şərtdir.

Dildə dolaş pak kimi,
Vəfalıqda tək kimi,
Rəftarın ipək kimi
Düzüm-düzüm də şərtdir.

San, son sənə bu həyat,
San, təzədir, an boyat.
Bay gözəl, oyan, bə yat,
Gözəl yozum da şərtdir...

Vida dərib dərd-sərdən,
Əda sərib o gərdən ...
Min yalanı əridən
Bircə düzüm də şərtdir ...

Öyünmə ki, məst ərəm;
Mən – önündə şəst ərən!..
Səni gözəl göstərən
"Gözəl" sözüm də şərtdir...

## GÖRÜNMÜR

Dərdim gülüstandır, qəmim gülşəndir,
Gül-dəstə dərimdə gülüm görünmür...
Bəlkə, aralıqda dumandır, çəndir;
Azıbdır gövhərim, ləlim görünmür.

Səma buludumdur həsrət köçümdə ,
Təsəlli çeşməsi verin, içim  də
Elə hönkürürəm səsim içimdə,
Bəsirət gözümdə selim görünmür.

Mən əməl dilədim, söz sevməmişəm,
Sən deyən "darıxma","döz"... sevməmişəm.
Bəlkə də, vaxtında düz sevməmişəm
Düzmü, günüm, ayım, ilim, görünmür?!

Çoxu cəllad imiş çox gözəllərin,
Hökmü var, insafı yox gözəllərin
Qəsdı öldürməkdir şux gözəllərin;
Dirim diri deyil, ölüm görünmür.

Bir müjdə qanad ver, mən uça bilim,
Sevgi hədəfimi ən uca bilim.
Bilgim nəmənədir, baş aça bilim?!
Bilməyim görünmür, bilim, görünmür.

Ələmim satılmır bazarlar içrə,
Qələmim olursan yazarlar içrə...
Qürurum çəkdiyi hasarlar içrə
Cana "can" söyləyən dilim görünmür.

Başıma od səpir o sən uzaqlıq,
Çəkən peşmanlıqdır; o da üzağlıq...
Elə yan  durursan, üstünə sağlıq,
Elə yandırırsan, külüm görünmür!..

## GÖTÜRMƏZ  Kİ...

Qınağı qonaq eləmə,
Tər oda qonaq götürməz.
Qonağı qınaq eləmə,
Şər əda qınaq götürməz.

Özgələşmə öz yaşında,
Qırx sinnində, yüz yaşında.
Gizlənmisən göz yaşında,
Köz yaşı yanaq götürməz.
Duymayanla durub qəsdə
Nə yalvar, nə imdad istə.
Tərs oturma inad üstə –
Bel əyər, çanaq götürməz.

Yabıyla köhlən çapışma,
İtkin, ötgünlə tapışma.
Düz qulpundan üz, yapışma,
Qopdusa, qaynaq götürməz.

Kəm gülənə gül göstərmə,
Dodaq qaçır, dil göstərmə,
Sərçeşməyə lil göstərmə,
Umanın unaq götürməz.

Yuxuya verib qorxunu,
Ayığa açma yuxunu...
Saf-çürük edib çoxunu
Sındırma, sınaq götürməz.

Niyə sevgin qönçə deyil?!
Ürək ürəyincə deyil?!
İNAM dərgahına əyil;
Əylənməyi HAQQ götürməz!..

## KÖNÜL VURĞUSU

Bu gün səni özəl qiyafəli –
qəzəl qafiyəli
gördüm.
Keyfini hecaladım,
şənini ucaladım.
İki misra əhval tutdum ...
Gözlərinin sualıma zillənən
qara giləl追
ani
qoşa nöqtə kimi unutdum ...
Bu qəfil üz-üzədən tutulub,
Nə danışdıq, nə dindik.
Beləcə, dinməzcə
həyatda birinci halıydı ki,
min sorğu aşırımından
sükut enişi endik ...
Xəyal-xəyal
ötənləri soraqladım.
Bir kitablıq yaddaşımın
dolaşıq səhifələrində
sevgi dünyamızı varaqladım;
sevindirdi məni
fəsil - fəsil
ömür yazımızda tapdığım
şans abzasındakı
cüzi orfoqrafiya səhvi —
o da sənsizliyimin məhvi ...
Söylə, söylə, bu aşkarda
aşkarmısan, sirmisən?!
Tər təbimə
qeybdən aşkar yazılan
Tanrısal şeirmisən?!
... İlk fəslini köçürdüm payızda
qızılı bir yarpağa.
Gördüm ki,
nəmli və qəmli
sarı xatirələr buludundan üzülüb,
dan-dan damır torpağa.
İndi təfavütü yox…
Qoşa addımlarımızın Yer üzünə,
hər izinə
mükəddər baxsam da,
buludabab laylanan göz dolumuzun
mehrətab səmasına axsam da,
açılmadı qaşqabağı ərşi-ələnın,
ulduzlarımız görüşüb,
işıq dəstinə düşür.
Bu sevdalı əmniyyət dərsində
könlümün nitqindən gələn
hər sözümün vurğusu
SƏNİN üstünə düşür ...

## SƏNƏ HEYİF DEMƏRƏM ...

Tufan əsir qəlbimdə,
Göynək səda bəm gəlir.
Hesabım var əlimdə;
Hövsələm də kəm gəlir.

Allahın ağ günündə,
Sinəmin dağ günündə,
tək durmuşam önündə
dərdlər niyə cəm gəlir?!

O gülü üzən olub,
Ətrindən bezən olub,
Qəzəbin nizən olub,
Hədəfinə xəm gəlir...

Dadıb ağu aşımı,
Girləyirəm başımı ...
İçdikcə göz yaşımı
Sanıram, zəm-zəm gəlir.

Kim gül vədə umuddur,
Ləçək-ləçək unutdur.

Qaşqabağın buluddur,
Laylarından nəm gəlir.

Bitənin bitibdi ki,
İtənin itibdi ki,
küpün nə düz kipdi ki,
açırsan, səhvin gəlir?!

Durdur cəfanı, yetər,
Yel əsər, duman ötər.
Bəsləsən, bəxt də bitər,
Demə ki, məhvin gəlir...

Unamazdım şər düşə,
Saçına ağ vər düşə,
Gülürəm bu gərdişə,
Zənn etmə, keyfim gəlir.

Lüzum yox can mədh etmək,
Sözü üzə sədd etmək.
Hərdən səni rədd etmək,
Hərdən də əfvim gəlir...

Sanma, daşam, dəmirəm,
Ər sözümü yemərəm.
Sənə heyif demərəm,
"Heyif"ə heyfim gəlir...

## SƏNƏ ƏN YENİ SÖZ ...

Dən-dən düşünürəm hey,
Misralar üyüm-üyüm ...
Bir tərif var, bir giley?
Sənə nə tapıb deyim?!

Sən Ayla tən yarısan,
Qəm qəmərim, nə qəmin?!
Tərifdən yuxarısan,
Vəsfə gəlməz məqamın!..

Gözəlliyin önündə
Bitib-tükənməz sözüm.
Kərə, kövrək günündə
Kəm təşbihə nə lüzum?!

Ay, Ayı da bəzədim ...
Sənsən nurun bolu dan.
Səni nəyə bənzədim?
Açılasan buluddan?!

Sən – saya söyüm, sayıq,
Ah çəkmə ah ilinə.
Mən – lal liman, sən – qayıq,
Son al söz sahilinə...

Dil qabar, gözəl desəm,
Eyni qədəm basmağım.
Təkrar olar gül – desəm,
Ən yeni söz – susmağım...

O da bir ömrə yetər,
İç – səs, qəlb – abdalıdır.
Mənim sözümdən betər
Sükutum s e v d a l ı d ı r...

